Təhsildə Keyfiyyət Təminatı Agentliyi

# İLLİK HESABAT 2025

# MÜNDƏRİCAT

MÜNDƏRİCAT

MÜNDƏRİCAT


3 | HAQQIMIZDA

4-5 | ƏSAS HƏDƏFLƏR VƏ FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

6-10 | KEYFİYYƏT TƏMİNATI

11-13 | TANINMA

14-22 | İL ƏRZİNDƏ GÖRÜLMÜŞ DİGƏR İŞLƏR



## Haqqımızda

Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) ölkə başçısının 29.12.2019-cu il tarixli, 907 nömrəli Fərmanı ilə yaradılıb və 09.01.2020-ci ildə dövlət qeydiyyatına alınıb. Elm və Təhsil Nazirliyinin (ETN) tabeliyində publik hüquqi şəxs statusuna malikdir.

## Əsas hədəflər

- Azərbaycan Respublikasında təhsildə effektiv keyfiyyət təminatı sisteminin fəaliyyətini təşkil etmək;

- Keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında qabaqcıl mövqe tutan təhsil sistemini formalaşdırmaq;

- Müasir dövrün tələblərinə uyğun bilik, bacarıq, səriştə və təcrübəyə malik rəqabətqabiliyyətli mütəxəssislərin əmək bazarına çıxışına dəstək göstərmək.

# Əsas fəaliyyət istiqamətləri

- Təhsil müəssisələrinin institusional və proqram akkreditasiya qiymətləndirilməsini həyata keçirmək;
- Təhsil müəssisələrində Daxili Keyfiyyət Təminatı sistemlərinin qurulması və inkişafı ilə bağlı məsləhət və metodik dəstək xidmətləri təşkil etmək;
- Təhsil müəssisəsinin nüfuzunun və mütəxəssis hazırlığının keyfiyyətinin artırılmasını təşviq etmək;
- Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınmasını həyata keçirmək;
- Peşə təhsili üzrə qeyri-formal və informal təhsilin tanınmasını (QFİTT) həyata keçirmək;
- Müvafiq sahədə qabaqcıl beynəlxalq təcrübəni öyrənmək və tətbiq etmək.

# Keyfiyyət təminatı

## İnstitusional akkreditasiya qiymətləndirilməsi

2025-ci ilin fəaliyyət planına əsasən TKTA Azərbaycan Respublikasında ali təhsil müəssisələrində (ATM) təhsilin keyfiyyətinin qiymətləndirilməsi, idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi və təhsil standartlarına uyğunluğun təmin edilməsi məqsədilə institusional akkreditasiya və təkrar institusional akkreditasiya proseslərini həyata keçirmişdir. Hesabat dövründə aşağıdakı ATM-lərdə institusional akkreditasiya prosesinin ikinci mərhələsi, yəni qiymətləndirmə mərhələsi ("Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli, 156 nömrəli Fərmanının 2.2-ci bəndi və "Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarının 3.4-cü bəndinə əsasən) həyata keçirilmişdir. Əvvəlki akkreditasiya dövründə verilmiş tövsiyələrə əməl etmə səviyyəsi, davamlı inkişaf göstəriciləri və keyfiyyət təminatı mexanizmlərinin effektivliyinin qiymətləndirilməsi məqsədilə təkrar akkreditasiya prosesi Gəncə Dövlət Universitetində baş tutmuşdur.

- Azərbaycan Dövlət Dəniz Akademiyası
- Bakı Ali Neft Məktəbi
- Bakı Qızlar Universiteti
- Mingəçevir Dövlət Universiteti
- Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası
- Odlar Yurdu Universiteti
- Azərbaycan Dillər Universiteti
- Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası
- Azərbaycan Texnologiya Universiteti
- Azərbaycan Dövlət Aqrar Universiteti
- Gəncə Dövlət Universiteti

**Akkreditasiya qiymətləndirilməsi aşağıdakı 7 istiqamət üzrə aparılmışdır:**



## “İbtidai sinif müəllimliyi” ixtisası üzrə proqram akkreditasiya qiymətləndirilməsi

Hesabat ilində müəllim hazırlığı istiqamətində proqram akkreditasiyasının həyata keçirilməsində əsas məqsəd mövcud təhsil proqramlarının keyfiyyət göstəricilərinin aktual tələblər baxımından yenidən nəzərdən keçirilməsi olmuşdur. Proses çərçivəsində proqramların tətbiq mexanizmləri, tədris nəticələri və davamlı təkmilləşdirmə tədbirləri üzrə mövcud vəziyyət qiymətləndirilmişdir. Bu məqsədlə Məktəbəqədər təhsil proqramları üzrə (bakalavriat və magistratura səviyyələri, bütün tədris dilləri nəzərə alınmaqla) 14 ATM-də - Azərbaycan Dövlət Pedaqoji Universiteti və onun Cəlilabad, Ağcabədi, Quba, Şəki, Şamaxı filialları, habelə Mingəçevir Dövlət Universiteti, Lənkəran Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu, Sumqayıt Dövlət Universiteti, Odlar Yurdu Universiteti, Azərbaycan Dillər Universiteti, Bakı Qızlar Universiteti və Bakı Slavyan Universitetində sahə baxışı keçirilmişdir.

Eyni zamanda, “İbtidai sinif müəllimliyi” ixtisası üzrə 3 ATM-də - Naxçıvan Müəllimlər İnstitutu, Gəncə Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialında təkrar proqram akkreditasiya qiymətləndirilməsi həyata keçirilmişdir.

Azərbaycan Dövlət Pedaqoji Universiteti
*(Cəlilabad, Ağcabədi, Quba, Şəki və Şamaxı filialları)*

Lənkəran Dövlət Universiteti

Mingəçevir Dövlət Universiteti

Azərbaycan Dillər Universiteti

Bakı Slavyan Universiteti

Bakı Qızlar Universiteti

Naxçıvan Müəllimlər İnstitutu

Sumqayıt Dövlət Universiteti

Odlar Yurdu Universiteti

## Təkrar proqram akkreditasiya qiymətləndirilməsi

Naxçıvan Müəllimlər İnstitutu

Gəncə Dövlət Universiteti

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialı

2025-ci il ərzində TKTA əməkdaşları özəl sektora aid 25 məktəbəqədər təhsil müəssisəsi, 5 ümumi təhsil müəssisəsi və 7 əlavə təhsil müəssisəsi olmaqla, ümumilikdə 37 təhsil müəssisəsində lisenziyalaşdırma fəaliyyəti ilə bağlı təşkil olunan prosesdə iştirak etmişlər. Bu çərçivədə aparılmış qiymətləndirmələr təhsil xidmətlərinin normativ-hüquqi tələblərə uyğunluğunun müəyyən edilməsi və təhsil müəssisəsinin fəaliyyətinə keyfiyyət göstəriciləri üzrə rəy vermə xarakteri daşıyır.



## Metodoloji dəstək tədbirləri

TKTA-nın Təlim və metodologiya şöbəsi tərəfindən 2025-ci il ərzində akkreditasiya qiymətləndirilməsi həyata keçirilmiş ATM-lər üçün özünütəhlilin aparılmasına hazırlıq məqsədilə aşağıda qeyd olunan metodoloji dəstək tədbirləri icra olunmuşdur:

- Bakı Dövlət Universitetində 40 ATM üzrə 84 əməkdaşın iştirakı ilə klaster təlimi;
- Azərbaycan Dövlət Dənizçilik Akademiyasında 25 əməkdaşın iştirakı ilə “Özünütəhlil Hesabatının (ÖH) tərtib olunması və akkreditasiya meyarlarının izahı” mövzusunda iki günlük təlim;
- Milli Aviasiya Akademiyasında 45 əməkdaşın iştirakı ilə “ÖH-nin tərtib olunması və akkreditasiya meyarlarının izahı” mövzusunda iki günlük təlim;
- Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Əmək və Sosial Münasibətlər Akademiyasında “Akkreditasiya prosesinə hazırlıq” mövzusunda info-sessiya;
- TKTA nümayəndələrinin iştirakı ilə ADPU-nun Şamaxı və Cəlilabad filiallarında, həmçinin Lənkəran Dövlət Universitetində tələbəyönümlü tədrisin təşkili ilə bağlı mövcud vəziyyətin qiymətləndirilməsi, proqram akkreditasiyası üzrə əvvəlki illərin nəticələri və cari il üçün hazırlıq səviyyəsinin müzakirəsi məqsədilə görüşlər.

2025-ci il ərzində akkreditasiya qiymətləndirilməsini həyata keçirmiş akkreditasiya komissiyaları üçün aşağıda qeyd olunan metodoloji dəstək tədbirləri icra olunmuşdur:

- Akkreditasiya komissiyalarında iştirak edəcək ekspertlərin seçilməsi məqsədilə 8 ekspertin iştirakı ilə simulyasiya qiymətləndirməsi;
- 2025-ci ilin birinci yarısında institusional akkreditasiya üzrə 6, proqram akkreditasiyası üzrə isə 8 komissiyanın üzvləri üçün onlayn formatda məlumat sessiyalarının təşkili;
- 2025-ci ilin ikinci  yarısında institusional akkreditasiya üzrə 5, proqram akkreditasiyası üzrə isə 8 komissiyanın üzvləri üçün onlayn formatda məlumat sessiyalarının təşkili.










## "Ekspert hazırlığı" təlim proqramı

"Ekspert hazırlığı" təlim proqramı çərçivəsində ümumilikdə 66 nəfər təlimlərə cəlb olunmuş, onlardan 26-sı təlim modullarını müvəffəqiyyətlə tamamlamışdır:

- 13-14 mart 2025-ci il tarixlərində ekspert-namizədlər üçün onlayn qaydada "Akkreditasiya prosesi və qiymətləndirmə meyarları ilə tanışlıq" mövzusunda keçirilmiş I modul təlimdə 35 nəfər iştirak etmiş, onlardan 11 namizəd uğurlu olmuşdur.
- 20-21 iyun 2025-ci il tarixlərində ekspert-namizədlər üçün onlayn qaydada "Akkreditasiya prosesi və qiymətləndirmə meyarları ilə tanışlıq" mövzusunda keçirilmiş I modul təlimdə 31 nəfər iştirak etmiş, onlardan 17-si uğur qazanmışdır.
- 7-9 oktyabr tarixlərində ekspert-namizədlər üçün onlayn qaydada "Ekspertlərin peşəkar fəaliyyəti" mövzusunda II modul təlim təşkil edilmişdir. Təlimin davamı olaraq 27-28 oktyabr tarixlərində keçirilən ekspertlərlə əyani formada simulyasiya görüşündə 28 ekspert namizəd iştirak etmiş, onlardan 26-sı uğurlu nəticə əldə etmişdir.





## "Keyfiyyət elçisi" təlim proqramı

19 ATM-dən ümumilikdə, 707 tələbə "Ali təhsil müəssisələrində keyfiyyət mədəniyyətinin formalaşmasında təhsilalanların rolu" mövzusunda esse yazaraq müsabiqəyə qatılmışlar. Esse müsabiqəsinin qalibi olmuş 54 tələbə 11 fevral 2025-ci il tarixində onlayn formatda təşkil edilmiş təlimdə iştirak etmişdir. 26-27 fevral 2025-ci il tarixlərində təşkil edilən təlimin ikinci modulunda isə tələbələr simulyasiya görüşündə iştirak etmişlər.






# Tanınma

## Xarici kvalifikasiyaların tanınması

Xarici dövlətlərin ali təhsil müəssisələrindən əldə olunan kvalifikasiyaların tanınması üzrə mövcud qanunvericiliyin təkmilləşdirilməsi və prosesin beynəlxalq təcrübəyə uyğunlaşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 avqust tarixli, 2306 nömrəli Fərmanı ilə “Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması Qaydaları” təsdiq edilmişdir.

**2025-ci il ərzində xarici kvalifikasiyaların tanınması ilə bağlı ümumilikdə 5508 müraciət üzrə ekspertiza həyata keçirilmişdir. Keçirilmiş ekspertizanın nəticəsində 886 müraciət üzrə mənfi, 4622 müraciət üzrə isə müsbət rəy verilməsi qərara alınmışdır.**



2025-ci il ərzində TKTA-ya QFİTT istiqamətində 13 müxtəlif peşə ixtisasları üzrə ümumilikdə 378 müraciət daxil olmuşdur.

Müraciət edən şəxslərin sənədlərinə ilkin baxış keçirildikdən sonra 337 nəfər qiymətləndirmə mərhələsinə cəlb edilmişdir. Qeyd edək ki, qiymətləndirmə Bakı və Gəncə şəhərlərində, eləcə də Abşeron, Bərdə, Gədəbəy, Goranboy və Qəbələ rayonlarında həyata keçirilmişdir.

Qiymətləndirmənin ilk mərhələsi olan nəzəri imtahanlarda iştirak edən 337 nəfərdən 259-u məqbul, 78-i isə qeyri-məqbul nəticə göstərmişdir. Növbəti mərhələdə 259 nəfərdən 243-ü praktiki imtahanlara cəlb edilmiş, onlardan 217-si məqbul, 26-sı isə qeyri-məqbul nəticə göstərmişdir. Yekunda 217 nəfər vətəndaş peşə sənədi əldə etmiş, 16 nəfər isə praktiki imtahanı gözləmə mərhələsindədir.

Əlavə olaraq, QFİTT istiqamətində tanınması həyata keçirilən ixtisas sayının 26-dan 31-ə çatdırılması məqsədilə 5 yeni peşə ixtisası (“Təmirçi-çilingər”, “Qrafik-dizayner”, “Kombi və kondisioner ustası”, “Mebel ustası”, “Arıçı”) üzrə qiymətləndirmə və tanınmanın həyata keçirilməsinə başlanılmışdır.

## Yeni əməkdaşlıq istiqamətləri

1) “Azerbaijan International Mining Company” MMC ilə tərəfdaşlıq çərçivəsində 16 əməkdaşın “Elektrik qaz qaynaqçısı” və “Təmirçi-çilingər” peşə ixtisasları üzrə bilik və bacarıqları qiymətləndirilərək, hər birinə peşə sənədi təqdim edilmişdir.

2) “AzerGold” QSC-nin maliyyə dəstəyi ilə həyata keçirilən "Şəhid və müharibədə yaralananların ailə üzvlərinin iqtisadi inkişafına dəstək" layihəsi çərçivəsində “Qənnadçı-şirniyyatçı” peşə ixtisası üzrə təlimlərə cəlb olunmuş 14 vətəndaşın bilik və bacarıqları qiymətləndirilərək hər birinə peşə sənədi təqdim edilmişdir.

## Həyata keçirilən sosial layihələr

Qeyd edək ki, QFİTT üzrə qiymətləndirmə aşağıda adları qeyd olunan layihələr çərçivəsində və şəxsi vəsait hesabına olmuşdur:

1)“Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2024-2026-cı illərdə əhalinin məşğulluq imkanlarının artırılmasına dair Tədbirlər Planı”nın “1.5. Məskunlaşması nəzərdə tutulan şəxslərin qeyri-formal və informal təhsil vasitəsi ilə əldə edilmiş bacarıqlarının qanunvericiliklə müəyyən olunmuş qaydada tanınması sahəsində işlərin görülməsi” bəndinə müvafiq olaraq cari ildə TKTA və Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin birgə tərəfdaşlığı çərçivəsində TKTA-nın təşkilatçılığı və maliyyə vəsaiti hesabına, eləcə də “Accelerated Career Academy” MMC-nin maliyyə dəstəyi ilə 151 vətəndaşın “Aşpaz”, “Qənnadçı-şirniyyatçı”, “Bərbər-vizajist-manikürçü”, “Bərbər”, “Dərzi”, “Əməliyyatçı-mühasib” və “Kompüter operatoru” peşə ixtisasları üzrə qiymətləndirilmə və tanınma həyata keçirilmişdir. İlkin mərhələdə nəzəri bilikləri qiymətləndirilən 151 vətəndaşın 98-i məqbul, 53-ü isə








qeyri-məqbul nəticə göstərmişdir. Növbəti mərhələdə 98 nəfərdən 94-ü praktiki imtahanlara cəlb edilmiş, onlardan 76-sı məqbul, 18-i isə qeyri-məqbul nəticə göstərmişdir. Yekunda 76 nəfər peşə sənədi əldə etmiş, 4 vətəndaşın isə növbəti dövr ərzində praktiki imtahanlara cəlb edilməsi nəzərdə tutulur.

2)"BP Azərbaycan" şirkətinin maliyyə dəstəyi ilə həyata keçirilən "Sənətin varsa, sənədin olacaq!" layihəsi çərçivəsində "Qənnadçı-şirniyyatçı", "Bərbər", "Kompüter operatoru", "Avtomobil mühərriklərinin yığıcısı" və "Mühafizəçi" peşə ixtisasları üzrə ümumilikdə 95 nəfər nəzəri imtahanlara cəlb edilmiş, onlardan 77-si məqbul, 18-i isə qeyri-məqbul nəticə göstərmişdir. Növbəti mərhələdə praktiki imtahanlara cəlb edilən 77 nəfərdən 76-sı məqbul, 1-i qeyri-məqbul nəticə göstərərək yekunda 76 nəfər peşə sənədi əldə etmişdir.

3) TKTA-nın maliyyə vəsaiti hesabına "Qənnadçı, şirniyyatçı" peşə ixtisası üzrə 21 nəfər nəzəri imtahanlara cəlb edilmiş, onlardan 20-si məqbul, 1-i isə qeyri-məqbul nəticə göstərmişdir. Növbəti mərhələdə praktiki imtahanlara cəlb edilən 9 nəfərdən 6-sı məqbul, 3-ü qeyri-məqbul nəticə göstərərək yekunda 6 nəfər peşə sənədi əldə etmiş, 11 ərizəçi üçün isə praktiki imtahanın həyata keçirilməsi planlaşdırılır.

4) Şəxsi vəsait hesabına "Aşpaz", "Avtomobil mühərriklərinin yığıcısı", "Bərbər-vizajist-manikürçü", "Bərbər", "Dayə", "Dərzi", "Əməliyyatçı-mühasib", "Qənnadçı-şirniyyatçı" və "Zərgər" peşə ixtisasları üzrə 41 nəfər nəzəri imtahanlarda iştirak etmiş, onlardan 35-i məqbul, 6-sı isə qeyri-məqbul nəticə göstərmişdir. Növbəti mərhələdə 34 nəfər praktiki imtahanlara cəlb edilmiş, onlardan 30-u məqbul, 4-ü qeyri-məqbul nəticə göstərərək yekunda 30 nəfər peşə sənədi əldə etmişdir. Qeyd edək ki, 1 nəfər praktiki imtahanı gözləmə mərhələsindədir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq bildiririk ki, TKTA-nın maliyyə vəsaiti hesabına, başqa sözlə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 dekabr 2020-ci il tarixli, 508 nömrəli Qərarına əsasən müəyyən edilmiş xidmət haqqını ödəmədən ümumilikdə 126 nəfər qiymətləndirmə imtahanlarında iştirak etmişdir. Belə ki, onlardan 84 nəfəri qiymətləndirmənin nəzəri mərhələsində, 69-u praktiki imtahanda iştirak etmiş, 15 müraciətçinin isə növbəti dövr ərzində praktiki imtahanlara cəlb edilməsi nəzərdə tutulur.







**Vətəndaş müraciətlərinin 2025-ci il üzrə statistikası**

| | |
|---|---|
| 27447 | Çağrı Mərkəzi üzrə müraciətlər |
| 7978 | Elektron müraciətlər |
| 2000 | Sosial şəbəkələr üzrə müraciətlər |
| 1662 | Yazılı müraciətlər |
| 588 | Vətəndaş qəbulu |

2025-ci il TKTA üçün həm strateji əhəmiyyətə malik, həm də ali təhsildə keyfiyyətin gücləndirilməsinə yönəlmiş bir sıra yerli tədbir və görüşlərin keçirildiyi dinamik dövr olmuşdur. Təhsil müəssisələri, akkreditasiya üzrə yerli və beynəlxalq ekspertlər, eləcə də beynəlxalq tərəfdaşlarla həyata keçirilən bu tədbirlər TKTA-nın təhsildə keyfiyyət standartlarının inkişafı üçün üzərinə götürdüyü missiyasını daha da möhkəmləndirmişdir.



**ADPU-nun Şamaxı filialında görüş**

12 aprel 2025-ci il tarixində TKTA nümayəndələri ADPU-nun Şamaxı filialında görüş keçirmişdir. Görüşdə filialın akademik və inzibati heyəti, tələbələr və maraqlı tərəflər iştirak etmiş, tələbəyönümlü tədrisin təşkili və proqram üzrə akkreditasiya hazırlığı ilə bağlı cari vəziyyət ətraflı müzakirə edilmişdir. TKTA rəhbərliyi belə görüşlərin regionlarda fəaliyyət göstərən ATM-lərin keyfiyyət təminatının gücləndirilməsi baxımından vacibliyini vurğulamışdır.

**Lənkəran Dövlət Universiteti və ADPU-nun Cəlilabad filialında görüş**




25 aprel 2025-ci il tarixində TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov, həmçinin müvafiq struktur bölmə rəhbərləri və əməkdaşları Lənkəran Dövlət Universitetində görüş keçirmişdir. Görüşdə universitet rəhbərliyi, fakültə dekanları, yerli və beynəlxalq mütəxəssislər ilə tələbəyönümlü tədris, həmçinin proqram üzrə akkreditasiya hazırlığı məsələləri müzakirə edilmişdir. Bu görüş ATM-lərin daxili keyfiyyət sistemlərinin inkişafına dəstək məqsədi daşımışdır. Həmçinin ADPU-nun Cəlilabad filialında TKTA nümayəndələrinin iştirakı ilə keçirilən görüşdə ali təhsildə keyfiyyətin inkişafı, akkreditasiya prosesi ilə bağlı mövcud məsələlər ətrafında müzakirələr aparılmış və tələbəyönümlü təhsilin inkişafı haqqında tələbələrin fikirləri dinlənilmişdir.

## TKTA-BDU: «Keyfiyyətə doğru addım: Akkreditasiya prosesinə hazırlıq» seminarı



23 iyun 2025-ci il tarixində Bakı Dövlət Universitetində TKTA tərəfindən "Keyfiyyətə doğru addım: Akkreditasiya prosesinə hazırlıq" adlı seminar təşkil edilmişdir. Bu seminar 40-dan çox ATM-i təmsil edən 84 iştirakçını bir araya gətirərək ATM-lərin akkreditasiya prosesinə hazırlıq səviyyəsinin artırılması, metodoloji dəstək və təcrübə mübadiləsi məqsədlərinə xidmət etmişdir. Tədbirdə akkreditasiya hazırlığı, daxili keyfiyyət təminatı sistemi və panel müzakirələri formatlarında təqdimatlar dinlənilmişdir.

## TKTA-ADA Universiteti: «Ali təhsildə keyfiyyət təminatı» üzrə II Simpozium

25-26 sentyabr 2025-ci il tarixlərində ADA Universitetində "Ali təhsildə keyfiyyət təminatı" mövzusunda II Simpozium keçirilmişdir. Simpoziumun rəsmi açılış mərasimində ADA Universitetinin prorektoru və TKTA-nın İdarə Heyətinin sədri çıxış edərək, ölkədə keyfiyyət təminatı sahəsində əldə olunan nailiyyətləri və perspektivləri vurğulamışlar. TKTA-nın tərəfdaşlığı ilə təşkil olunmuş simpozium ATM-lərin keyfiyyət təminatı sahəsində çalışan mütəxəssislərini bir araya gətirmişdir. Tədbirdə keyfiyyət təminatı, daxili və milli akkreditasiya, proqramların qiymətləndirilməsi, tədris-öyrənmə prosesləri, insan resurslarının inkişafı və layihə idarəçiliyi kimi aktual mövzular üzrə məruzələr dinlənilmiş, panel müzakirələri və təcrübə mübadiləsi sessiyaları keçirilmişdir. Simpozium iştirakçıları arasında yerli və beynəlxalq ekspertlər də yer almışdır. Bu tədbir ölkənin ali təhsil sektorunda keyfiyyət təminatı mədəniyyətinin dərinləşdirilməsi və əməkdaşlığın gücləndirilməsi baxımından mühüm platforma rolu oynamışdır.






## Serbiya Milli Keyfiyyət Təminatı Agentliyinin (NEAQA) ev sahibliyi etdiyi təlimdə iştirak




2025-ci ildə TKTA nümayəndələri Serbiya Milli Keyfiyyət Təminatı Agentliyinin (NEAQA) ev sahibliyi ilə SEQA-ESG II layihəsi çərçivəsində keçirilmiş təlim və təcrübə mübadiləsində iştirak etmişlər. Təlim ali təhsildə keyfiyyət təminatı sahəsində Avropa Standartları və Təlimatlarının (ESG) tətbiqi, akkreditasiya proseslərinin təşkili, daxili keyfiyyət təminatı mexanizmlərinin qiymətləndirilməsi və tematik təhlil metodologiyalarının praktiki tətbiqi mövzularına həsr olunmuşdur. Tədbir çərçivəsində müxtəlif ölkələrin milli keyfiyyət təminatı agentliklərinin nümayəndələri arasında fikir mübadiləsi aparılmış, uğurlu beynəlxalq təcrübələr təqdim edilmiş və müasir çağırışlar ətrafında geniş müzakirələr aparılmışdır. TKTA-nı tədbirdə Akkreditasiya və lisenziya şöbəsinin aparıcı məsləhətçisi Xanım Quliyeva, Təlim və Metodologiya şöbəsinin böyük məsləhətçisi Bəyim Abdulla və Analitik təhlil şöbəsinin böyük məsləhətçisi Gülnar Tahirli təmsil etmişdir.



## Belqrad şəhərində 28 May – Müstəqillik Günü münasibətilə rəsmi qəbulda iştirak

28 may 2025-ci il tarixində Belqrad şəhərində Azərbaycan Respublikasının Serbiya Respublikasındakı səfirliyi tərəfindən təşkil olunmuş Müstəqillik Günü münasibətilə rəsmi qəbula TKTA əməkdaşları Xanım Quliyeva, Bəyim Abdulla və Gülnar Tahirli dəvət olunmuşlar. Tədbir yüksək səviyyəli diplomatik nümayəndələr və ictimai xadimlərin iştirakı ilə həyata keçirilmişdir.

## Macar Akkreditasiya Komitəsində (MAB) heyətin mübadiləsində iştirak



9-11 iyul 2025-ci il tarixlərində TKTA-nın Akkreditasiya və lisenziya şöbəsinin əməkdaşları Nigar Əsgərova və Firuzə Məmmədzadə SEQA-ESG II layihəsi çərçivəsində Macarıstanın Budapeşt şəhərində fəaliyyət göstərən Macar Akkreditasiya Komitəsində (MAB) təşkil olunan heyətin mübadiləsində iştirak etmişlər. Bu səfər ESG-yə uyğunluq baxımından qarşılıqlı təcrübə mübadiləsi və qabaqcıl təcrübənin öyrənilməsi məqsədi daşımışdır. MAB nümayəndələri ilə görüşdə həm Avropa keyfiyyət təminatı təcrübəsi, həm də TKTA-nın fəaliyyət sahələri barədə fikir mübadiləsi aparılmışdır.

### TKTA nümayəndəsinin Moldova Respublikasına işgüzar səfəri




8–10 dekabr 2025-ci il tarixlərində TKTA-nın Təlim və metodologiya şöbəsinin müdiri Elçin Cəfərov Moldova Respublikasının Təhsil və Tədqiqatda Milli Keyfiyyət Təminatı Agentliyinin (ANACEC) dəvəti ilə Kişinyov şəhərinə səfər etmişdir. Heyətin mübadiləsi çərçivəsində baş tutan səfər zamanı ATM-lərinin akkreditasiyası prosedurları, daxili və xarici keyfiyyət təminatı mexanizmləri, tədris prosesinin qiymətləndirilməsi, institusional idarəetmə, ESG standartlarının tətbiqi, rəqəmsal alətlər və tədqiqat fəaliyyətinin keyfiyyətinin ölçülməsi kimi mövzular ətrafında geniş müzakirələr aparılmışdır. Görüşlərin sonunda TKTA və ANACEC nümayəndələri bu cür təcrübə mübadiləsi səfərlərinin həm informasiya mübadiləsinə, həm də beynəlxalq əməkdaşlığın dərinləşdirilməsinə mühüm töhfə verdiyini vurğulayaraq gələcəkdə də qarşılıqlı səfərlərin davam etdirilməsinin hər iki Agentlik üçün faydalı olacağını ifadə etmişlər. Qeyd edək ki, təhsil sahəsində beynəlxalq tərəfdaşlıq imkanlarının genişləndirilməsi TKTA-nın strateji fəaliyyət istiqamətlərindən biri olmaqla, keyfiyyət təminatı sisteminin təkmilləşdirilməsi və qabaqcıl təcrübələrin ölkəmizdə tətbiqi baxımından mühüm əhəmiyyət kəsb edir.

### TKTA əməkdaşlarının Xorvatiyanın Elm və Ali Təhsil Agentliyində (ASHE) heyətin mübadiləsində iştirakı



16-19 dekabr 2025-ci il tarixlərində TKTA-nın Keyfiyyət təminatı departamentinin əməkdaşları Xorvatiyanın Elm və Ali Təhsil Agentliyində (ASHE) heyətin mübadiləsi çərçivəsində ali təhsildə keyfiyyət təminatı sahəsində beynəlxalq təcrübə mübadiləsində iştirak etmək məqsədilə sözügedən ölkəyə səfər etmişlər. Səfər çərçivəsində ENQA-ya tamhüquqlu üzvlük prosesi, Avropa Keyfiyyət Təminatı Reyestri (EQAR) üzrə qeydiyyat,

SEQA-ESG II layihəsi üzrə fəaliyyətlər, habelə agentliklərin institusional inkişafı və strateji hədəfləri müzakirə olunmuşdur. TKTA və ASHE-nin mütəxəssisləri ESG standartlarına uyğunluq, maraqlı tərəflərin proseslərə cəlb olunması, daxili keyfiyyət təminatı, insan resursları, akkreditasiya meyarları və ekspertlərin hazırlanması kimi əsas mövzular ətrafında fikir mübadiləsi aparmışlar. Səfər boyunca təşkil olunan geniş məzmunlu müzakirələr TKTA-nın beynəlxalq təcrübəyə əsaslanan inkişafını, ENQA və EQAR kimi nüfuzlu qurumlara müraciət prosesinin daha sistemli şəkildə hazırlanmasını dəstəkləyir.

## TKTA nümayəndəsinin Türkiyədə heyət mübadiləsində iştirakı



22-25 dekabr 2025-ci il tarixlərində TKTA-nın Akkreditasiya və lisenziya şöbəsinin müdiri Samir Quliyev Türkiyənin proqram akkreditasiya qurumları ilə müzakirələr aparmaq, İstanbul Universiteti-Cərrahpaşada keçirilən proqram akkreditasiyasında beynəlxalq müşahidəçi olaraq iştirak etmək və burada institusional keyfiyyət təminatı mexanizmləri mövzusunda universitetin rəhbərliyi ilə görüşlər keçirmək məqsədilə İstanbul şəhərinə səfər etmişdir. 22 dekabr tarixində Ali Təhsildə Keyfiyyət Təminatı Agentliklərinin Mərkəzi və Şərqi Avropa Şəbəkəsinin (CEENQA) tam hüquqlu üzvü olan və İdarə Heyətində təmsil olunan Pedaqoji üzrə Proqramların Qiymətləndirilməsi və Akkreditasiyası Assosiasiyasında (EPDAD) İdarə Heyətinin sədri və üzvlərinin iştirakı ilə ikitərəfli görüşlər keçirilərək Türkiyədəki proqram akkreditasiya prosesləri, dərnəyin işləmə mexanizmi, ekspert və komissiyalarla iş çərçivəsi, elektron akkreditasiya sistemi, daxili keyfiyyət təminatı sisteminə töhfə mexanizmi və birgə fəaliyyətlərin həyata keçirilməsi istiqamətində müvafiq müzakirələr aparılmışdır.

Həmçinin EPDAD tərəfindən formalaşdırılan Akkreditasiya Komissiyası ilə birlikdə beynəlxalq müşahidəçi kimi İstanbul Universiteti-Cərrahpaşanın texnoparkında (Entertech İstanbul Teknokent) universitetin prorektoru, təhsil fakültəsinin dekanı və kafedra müdirləri ilə görüşlər keçirilərək təhsil ixtisaslarının texnoparkdakı rolu mövzusunda verilən təqdimat müzakirə edilmişdir. Samir Quliyev 23-24 dekabr tarixlərində EPDAD tərəfindən sözügedən ATM-də "İbtidai sinif müəllimliyi", "Məktəbəqədər təhsil", "İbtidai siniflər üçün riyaziyyat müəllimliyi", "Psixologiya müəllimliyi" ixtisasları üzrə keçirilən proqram akkreditasiyasında beynəlxalq müşahidəçi kimi bütün proseslərdə iştirak edərək təcrübələri bölüşmüşdür. Səfər çərçivəsində universitetin rektoru Professor Nuri Aydınla görüşdən sonra, prorektor və keyfiyyət təminatı Komissiyasının rəhbəri Professor Erol İncə ilə ATM-in keyfiyyət təminatı sistemi, işləmə mexanizmi, layihələr və İstanbul Universiteti-Cərrahpaşanın tədqiqat universiteti statusunu qazanma prosesi ilə əlaqəli müzakirələr aparılmışdır. 25 dekabr tarixində İstanbulda fəaliyyət göstərən digər proqram akkreditasiyası qurumu olan, eyni zamanda CEENQA-nın da tam hüquqlu üzvü FEDEK-in (Tətbiqi Elmlər, Ədəbiyyat, Dil, Tarix və Coğrafiya ixtisasları üzrə Akkreditasiya Assosiasiyası) İdarə Heyətinin üzvləri ilə görüş keçirilərək sözügedən qurum tərəfindən Türkiyədə tətbiq edilən proqram akkreditasiya prosesləri haqqında təqdimat dinlənilmiş və təcrübələr kontekstində müzakirələr aparılmışdır.

Samir Quliyev Türkiyədə keçirilmiş görüşlərdə proqram akkreditasiyası kontekstində İstanbul

Universiteti-Cərrahpaşanın keyfiyyət təminatının institusional mexanizmi və “tədqiqat universiteti” prosesindəki fəaliyyətləri ilə yaxından tanış olaraq TKTA ilə proqram akkreditasiya qurumları olan EPDAD və FEDEK arasındakı əməkdaşlıq perspektivlərini müzakirə etmişdir. Həmçinin bu istiqamətdə fəaliyyətlər planlaşdırılaraq əməkdaşlıqların davam etdirilməsi razılaşdırılmışdır.

## CEENQA Baş Assambleyasında iştirak

13-14 iyun 2025-ci il tarixlərində Estoniya Respublikasının Tallin şəhərində CEENQA-nın Baş Assambleyası keçirilmişdir. Tədbirdə TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov və Akkreditasiya və lisenziya şöbəsinin müdiri Samir Quliyev Azərbaycanı təmsil etmişlər. Assambleya çərçivəsində CEENQA üzvü olan 27 ölkədən 46 keyfiyyət təminatı qurumunun nümayəndələri ali təhsildə keyfiyyət təminatı standartlarının təkmilləşdirilməsi, təcrübə mübadiləsi və qarşılıqlı əməkdaşlıq məsələlərini müzakirə etmişlər. Bu tədbir TKTA üçün regional əməkdaşlıqların genişləndirilməsi və müştərək layihələrin dəstəklənməsi baxımından əhəmiyyətli platforma olmuşdur.






## “SEQA-ESG II” layihəsinin bağlanış mərasimində iştirak

21 oktyabr 2025-ci il tarixində TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov və Akkreditasiya və lisenziya şöbəsinin müdiri Samir Quliyev Belçika Krallığının paytaxtı Brüssel şəhərində təşkil edilmiş “SEQA-ESG II” layihəsinin bağlanış mərasimində iştirak etmişlər. 2022-ci ildə Erasmus+ proqramının dəstəyi ilə həyata keçirilən layihə Azərbaycan (TKTA), Bosniya və Herseqovina (HEA və AHERS), Serbiya (NEAQA) və Ukrayna(NAQA) keyfiyyət təminatı agentlikləri ilə əməkdaşlıq çərçivəsində icra edilmiş, əsas məqsədi Avropa keyfiyyət təminatı agentliklərinin ESG ilə uyğunlaşmasını dəstəkləmək olmuşdur.

## Beynəlxalq əməkdaşlıq və təcrübə mübadiləsi

Hesabat ilində TKTA beynəlxalq əməkdaşlığın genişləndirilməsi və ali təhsildə keyfiyyət təminatı sahəsində qabaqcıl təcrübələrin öyrənilməsi istiqamətində mühüm addımlar atmış, bir sıra nüfuzlu beynəlxalq tədbirlərdə təmsil olunmuş və heyətin təcrübə mübadiləsində fəal iştirak etmişdir. Bu fəaliyyətlər TKTA-nın beynəlxalq nüfuzunun artırılmasına və milli keyfiyyət təminatı sisteminin Avropa standartlarına uyğunlaşdırılmasına töhfə vermişdir.




### ENQA Baş Assambleyasında iştirak və əməkdaşlıq imkanları

22-24 oktyabr 2025-ci il tarixlərində Belçika Krallığının paytaxtı Brüssel şəhərində ENQA Baş Assambleyası keçirilmişdir. TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov və Akkreditasiya və lisenziya şöbəsinin müdiri Samir Quliyev tədbirdə iştirak etmişdir. Tədbir ENQA-nın 25 illik yubileyi ilə eyni vaxta təsadüf etdiyinə görə iştirakçılar üçün xüsusi əhəmiyyətli beynəlxalq platforma rolunu oynamışdır. Bu iştirak TKTA-nın Avropa və beynəlxalq keyfiyyət təminatı məkanına daha geniş inteqrasiyası və əməkdaşlıq imkanlarının dərinləşdirilməsi üçün vacib addım olmuşdur.

### ADPU, TKTA, YÖKAK, Çankaya Universiteti ilə birgə: "Ali Təhsildə Keyfiyyət üzrə Beynəlxalq Konfrans (IQC 2025)"



27–28 noyabr 2025-ci il tarixlərində Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) TKTA, Türkiyənin Ali Təhsilin Keyfiyyəti Şurası (YÖKAK), ADPU və Türkiyənin Çankaya Universitetinin birgə təşkilatçılığı ilə "Ali Təhsildə Keyfiyyət üzrə Beynəlxalq Konfrans (IQC 2025)" keçirilmişdir. Bu beynəlxalq konfrans ali təhsildə keyfiyyət təminatı, akkreditasiya, tədris və öyrənmə proseslərinin müasir yanaşmaları, rəqəmsal və tələbə yönümlü təhsil, həmçinin institusional keyfiyyət idarəçiliyi kimi sahələrdə nəzəri bilik, tədqiqat nəticələri və uğurlu təcrübələrin paylaşılması üçün geniş elmi platforma olmuşdur. Konfransda 200-ə yaxın xarici və yerli nümayəndə iştirak etmişdir. Qeyd etmək lazımdır ki, bu konfrans təhsil və elm ictimaiyyəti üçün qlobal trendlər, təcrübələr üzərində fikir mübadiləsi üçün əhəmiyyətli imkanlar yaratmışdır.

# Hüquqi məsələlər

## Qanunvericilik vəsatəti

Məlum olduğu kimi, TKTA-nın fəaliyyət istiqamətləri üzrə normativ hüquqi akt layihələrinin hazırlanması və qanunvericilikdə nəzərdə tutulmuş qaydada yuxarı dövlət orqanlarına təqdim olunması, həmçinin inzibati və məhkəmə icraatı üzrə şikayətlərlə bağlı işlərin görülməsi Hüquqi məsələlərin tənzimlənməsi şöbəsinin vəzifələrinə aid edilmişdir.

Ötən dövr ərzində təhsil qanunvericiliyində, xüsusilə TKTA-nın fəaliyyət istiqamətləri üzrə normativ hüquqi aktlar üzrə dəyişiklik layihələri hazırlanaraq müvafiq qaydada təqdim olunmuşdur. Belə ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 28 sentyabr tarixli, 167 nömrəli qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları"na dəyişikliklər edilməsini təklif edən layihə qəbul edilmiş və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il dekabr tarixli, 363 nömrəli qərarı https://e-qanun.az/framework/60926 ilə təsdiq edilmişdir.

Həmin dəyişikliklərin mahiyyətində akkreditasiya qiymətləndirilməsi prosesinin daha yüksək səviyyədə təşkili, Akkreditasiya Meyarlarının təlim və tədrisin təşkili istiqaməti üzrə təhsil müəssisələrinin nəticələrinin qiymətləndirilməsində xüsusi olaraq nəzərə alınması,Qaydalara uyğun olaraq qiymətləndirmə nəticələri əsasında veriləcək qərarların mütənasibliyinin artırılması hədəflənmişdir. Xüsusilə təhsilalanların qəbulunun dayandırılması və ya azaldılması ilə bağlı tənzimləməni nəzərdə tutan tədbirlərin akkreditasiya qiymətləndirilmə nəticələrinə müvafiq olaraq Akkreditasiya Şurası tərəfindən müəyyən edilməsinə imkan verən məsələlər nəzərdə tutulmuşdur.

Əlavə olaraq, xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınmasının nəticələrindən narazı qalan ərizəçilərin məhkəmə qaydasında şikayətləri üzrə ümumilikdə 401 məhkəmə işi yekunlaşmış (əvvəlki il üzrə cari dövrdə bu göstərici 270 olmuşdur), 30 iş üzrə məhkəmələr tərəfindən vətəndaşların iddia tələblərinin təmin edilməsi barədə öhdəlik müəyyən edən yekun qərarlar çıxarılmış və TKTA tərəfindən icra olunmuşdur. 2025-ci ilin yekununda TKTA-nın tərəf kimi iştirak etdiyi məhkəmə icraatlarında davam edən iş sayı 283 olmuşdur.

Yekunda qeyd edək ki, cari il ərzində TKTA-nın tərəf qismində iştirak etdiyi məhkəmə icraatlarında və qanunvericilik təklifləri ilə bağlı yuxarı dövlət orqanlarındakı müzakirələrdə müvafiq bölmə üzrə əməkdaşların iştirakı təmin edilmişdir. Həmçinin, ETN-nin "Danışır təcrübə" layihəsi çərçivəsində 31.10.2025-ci il tarixində Azərbaycan Respublikası Ali Məhkəməsinin sədr müavini cənab Çingiz Əsgərovun məruzəçi kimi iştirak etdiyi paneldə TKTA-nın Hüquqi məsələlərin tənzimlənməsi şöbəsinin əməkdaşları iştirak etmişdir. "Konstitusiya və Suverenlik İli" çərçivəsində keçirilən görüşdə hüququn insan həyatındakı həlledici rolu, Konstitusiya dəyərlərinin gündəlik qərarlara, vətəndaş münasibətlərinə və idarəetmə proseslərinə təsiri və ümumilikdə Azərbaycan Respublikasında məhkəmə sistemindəki islahatlar barədə məruzəçi qonağın fikirləri və təcrübəsi paylaşılmışdır.



Çağrı Mərkəzi
146-8

info@tkta.edu.az

www.tkta.edu.az

tktaeduaz

tktaeduaz

TKTA

tktaeduaz

tktaeduaz